

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 83 (21.493)

*6 may 2016-cı il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Ordubad Texniki Peşə və Sürücülük Məktəb kompleksi istifadəyə verilmişdir

Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin muxtar respublikada uğurla davam etdirilməsi iqtisadiyyatın sürətli inkişafına, yeni müəssisələrin və iş yerlərinin açılmasına səbəb olmuşdur. Yeni iş yerlərinin açılması və bütün sahələrdə müasir informasiya texnologiyalarının tətbiqi isə ixtisaslı və peşəkar kadrlara olan tələbatı artırmışdır. Bu səbəbdən də son illər muxtar respublikada peşə təhsilinin inkişafı diqqət mərkəzində saxlanılır, peşə-ixtisas təhsili müəssisələrinin maddi-texniki bazası ilbəil möhkəmləndirilir. Ordubad Texniki Peşə və Sürücülük Məktəbi üçün yeni kompleksin istifadəyə verilməsi də muxtar respublikada bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.

Mayın 5-də – ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ərəfəsində Ordubad Texniki Peşə və Sürücülük Məktəb kompleksinin açılışı olmuşdur.



tar respublikada gənclərə peşə təhsili vermək üçün lazımi imkanlar vardır. Hazırda muxtar respublikada yataqxanası olan peşə məktəb kompleksləri fəaliyyət göstərir. Bu məktəblərdə oxuyan gənclərə dövlətimiz tərəfindən təqaüd verilir. Bu gün Ordubad şəhərində istifadəyə verilən 522 yerlik peşə məktəbində müdavimlərin hərtərəfli təhsil alması, eləcə də məktəbin 100 yerlik yataqxanasında onların yaşayışı və qidalanması üçün lazımi şərait vardır. Muxtar respublikanın istənilən rayonundan, hətta Azərbaycanın digər bölgələrindən də müraciət edənlər bu məktəbdə təhsil ala bilərlər.

"Peşə məktəblərinin inkişafı bundan sonra da diqqətdə saxlanılacaqdır. Çünki peşəsi olmayan gənc gələcəkdə heç nəyə müvəffəq ola bilməz", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, hər bir gənc gələcək həyatını qurmaq üçün, ilk növbədə, peşə sahibi olmalıdır. İstər peşə təhsili, istərsə də orta ixtisas və ali təhsil almasından asılı olmayaraq seçdiyi ixtisası dərindən mənimsəməlidir. Bu tədbirlər ölkəmizdə ona görə həyata keçirilə bilir ki, Azərbaycan müstəqil dövlətdir. Ölkəmizdə ulu öndərimiz Heydər Əliyevin siyasi xətti və ideyaları uğurla həyata keçirilir. Bu gün Azərbaycanda, eləcə də onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında qurulanlar, yaradılanlar, mövcud inkişaf ulu öndər Heydər Əliyev siyasətinə sədaqətin və bu yolun uğurla davam etdirilməsinin nəticəsidir. Ulu öndərimizin doğum günü ərəfəsində istifadəyə verilən Ordubad Texniki Peşə və Sürücülük Məktəbi də dahi şəxsiyyətin ideyalarının həyata keçirilməsinin daha bir nümunəsidir. Ona görə də gənclərimiz bu yol üçün çalışmalı, bu yolun davamı üçün səy göstərməlidirlər. Hər bir gənc, ilk növbədə, yaxşı oxumalı, yaxşı peşə öyrənməli, ölkəsinə, vətəninə, millətinə sədaqətlə xidmət etməlidir. Budur Heydər Əliyev yolu.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada təhsilin inkişafına xüsusi diqqət yetirilir. Son illər 200-dən çox təhsil müəssisəsi tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmiş, müasir maddi-texniki və tədris bazası yaradılmışdır. Təhsilin inkişafı konsepsiyasının tərkib hissəsi kimi peşə təhsili infrastrukturunun yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılmışdır. Bu gün nazirliyin tabeliyində 4 peşə məktəbi və 1 peşə liseyi fəaliyyət göstərir. 2015-2016-cı tədris ilində peşə təhsili müəssisələrini 604 məzun bitirmişdir. Hazırda 25 ixtisas üzrə 633 müdavim müxtəlif peşə ixtisasları üzrə təhsilini davam etdirir. Məmməd Qəribov göstərilən diqqətə və yaradılan şəraitə görə muxtar respublikanın təhsil işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin müəllimi Tural Zeynalov demişdir ki, muxtar respublikada təhsil müəssisələri ən müasir informasiya texnologiyaları ilə təmin edilir. Bir vaxtlar lövhədə yazmaq üçün təbaşir tapılmayan məktəblərimizdə indi dərsləri elektron lövhə vasitəsilə tədris edirik. Təhsilimiz 20 ildə 100 illik inkişaf yolu keçib. Bütün bunlar xoşbəxt gələcəyin bünövrələridir. Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ərəfəsində Ordubad Texniki Peşə və Sürücülük Məktəbi üçün yeni kompleksin istifadəyə verilməsi də kollektivin məsuliyyətini artırır, daha səylə işləməyə ruhlandırır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ordubad şəhərində muxtar respublika əhəmiyyətli peşə məktəbinin istifadəyə verildiyini bildirmiş, bu münasibətlə kollektivi təbrik edərək demişdir: Hər bir ölkənin inkişafı onun yetişdirdiyi ixtisaslı kadrlardan asılıdır. Ordubad Texniki Peşə və Sürücülük Məktəbində təhsil



alan, peşə öyrənən gənclər də gələcəkdə öz yaşayışlarını təmin etməklə yanaşı, həm də ölkəmizin inkişafına töhfələr verəcəklər. Bu mənada peşə təhsili hər bir ölkə üçün ali təhsil qədər əhəmiyyətlidir. Çünki iqtisadiyyatın bütün sahələrində ali təhsilli mütəxəssislərlə yanaşı, peşə ixtisası olan kadrlara da böyük tələbat vardır.

Ali Məclisin Sədri demişdir: Ölkəmizdə peşə təhsilinə xüsusi diqqət göstərilir. Hələ ötən əsrin 70-ci illərində ümummilli liderimiz Heydər Əliyev tərəfindən Azərbaycanın gələcək inkişafına hesablanmış tədbirlər həyata keçirilmiş, ölkəmizin müxtəlif bölgələrində peşə məktəbləri fəaliyyətə başlamışdır. Bu tədbirlərin tərkib hissəsi kimi 1979-cu ildə Naxçıvan şəhəri 32 nömrəli peşə məktəbinin Ordubad filialı yaradılmış, 1980-ci ildə isə 166 nömrəli Ordubad orta Texniki Peşə Məktəbi kimi fəaliyyətini davam etdirmişdir. Məktəbin məzunları bu gün ölkəmizin müxtəlif sahələrində fəaliyyət göstərirlər.

Qeyd olunmuşdur ki, Ordubad şəhərində fəaliyyət göstərən peşə məktəbi uzun illər həm orta, həm də peşə təhsili verdiyi üçün ixtisaslı kadrların hazırlanmasında çətinliklər yaranırdı. Gənclər seçdikləri peşələrə tam yiyələnə bilmirdilər. Lakin bu gün istifadəyə verilən peşə məktəbi müxtəlif peşə sahələri üzrə ixtisaslaşmışdır. Artıq müdavimlər yalnız seçdikləri peşələr üzrə təhsil alırlar ki, bu da peşəkar kadr hazırlığında vacib məsələdir. Peşə məktəbinin binası tam müasir tələblərə cavab verir. Binada hər bir peşəyə aid emalatxanalar, elektron lövhəli siniflər, tədris avadanlıqları, sürücülük peşəsinə yiyələnmək istəyənlər üçün müasir avtotrenajorlar istifadəyə verilmiş, məktəbə ixtisaslı müəllimlər cəlb olunmuşdur. Bu da imkan verəcəkdir ki, peşə məktəbini bitirən gənclər seçdikləri ixtisas üzrə peşəkar kadr kimi yetişsinlər. Bu gün inkişaf etmiş ölkələrdə də peşə təhsilinə üstünlük verilir. Böyük şirkətlər özlərinin ayrıca peşə məktəblərini yaradırlar. Çünki keyfiyyətli və rəqabətədavamlı məhsul istehsal etmək üçün, ilk növbədə, peşəkar kadr hazırlığına diqqət yetirmək lazımdır.

Ali Məclisin Sədri demişdir: Bu gün mux-

Ali Məclisin Sədri bu yolda hər kəsə uğurlar arzulamış, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, Ordubad Texniki Peşə və Sürücülük Məktəbi yataqxana və tədris korpusundan ibarətdir. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan tədris korpusu 522 yerlikdir. Burada 12-si elektron lövhəli olmaqla 28 sinif otağı, 4 emalatxana, şahmat sinfi, müəllimlər, kompüter, tibb və arxiv otaqları, kitabxana, 2 bərbər otağı, bufet, idman zalı və hərbi kabinə vardır. Kitabxanada məktəbdə tədris olunan peşələrə uyğun 2 minə yaxın dərs vəsaiti və bədii ədəbiyyat qoyulmuşdur.

Məktəbdə qadın bərbəri, bərbər, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər, xalçaçı, traktorçu-maşinist, qazanxana maşinisti, aşpaz köməkçisi, ofisiant, avtomobil sürücüsü, elektrik və rabitə montyoru olmaqla 11 peşə ixtisası tədris olunacaqdır. Sinif otaqları ayrı-ayrı ixtisaslara uyğun avadanlıq və əyani vəsaitlərlə təchiz olunmuşdur.

*Ardı 2-ci səhifədə*





Müəllimlərlə görüşən Ali Məclisin Sədri demişdir: Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin müasir şəraiti vardır. Gənclər burada hərtərəfli təhsil ala biləcəklər. Kollektiv yaradılan şəraitdən səmərəli istifadə etməli, məktəbdə nizam-intizam və tələbkarlıq artmalıdır. Müasir texnologiyalar, yeni innovasiyalar gənclərə hərtərəfli öyrədilməli, peşəkar mütəxəssislər yetişdirilməlidir. Müəllimlər daim öz üzərlərində işləməli, yeni tədris metodları tətbiq olunmalıdır.

Müəllimlərdən Afət Qasımova minnətdarlıq edərək demişdir ki, son illər muxtar respublikanın sürətli inkişafı təhsilin bütün pillələrini, o cümlədən peşə təhsilini də əhatə etmişdir. Ordubad Texniki Peşə və Sürücülük Məktəbi üçün yeni kompleksin istifadəyə verilməsi kollektivin böyük sevincinə səbəb olmuşdur. Məktəbdə yaradılan şəraitdən səmərəli istifadə edəcək, gənclərin bacarıqlı mütəxəssis və əsl vətəndaş kimi yetişməsində bilik və bacarığımızı əsirgəməyəcəyik.

Məktəbin 100 çarpayılıq yataqxana binasında istirahət otaqları, camaşırxana, yeməkxana, komendant otağı, əşya və ərzaq anbarları vardır. Yataqxanada müdavimlərin rahatlığı üçün lazımi şərait yaradılmışdır.

Müdavimlər məktəbin həyətindəki təlim meydançasında əyani vərdişlərə yiyələnəcəklər. Meydança yol hərəkəti qaydalarına uyğun olaraq işarələnmiş, işıqforlar quraşdırılmışdır. Sürücülük kursu keçənlərin praktik vərdişlərinin artırılması üçün məktəbə “Naz Lifan-320” markalı minik avtomobili təqdim edilmişdir.

Məktəbin həyətində də geniş abadlıq işləri görülmüş, istirahət guşəsi, açıq idman qurğuları, futbol və basketbol meydançaları istifadəyə verilmişdir.



## Naxçıvan-Ordubad magistralı-Culfa şəhər avtomobil yolu yenidən qurulur



Muxtar respublikada aparılan abadlıq-quruculuq işləri yol infrastrukturunu da əhatə etmişdir. Son illər bütün yaşayış məntəqələrində müasir avtomobil yolları salınmış, avtomobillərin rahat hərəkəti təmin edilmişdir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan-Ordubad magistralından Culfa şəhərinə qədər olan avtomobil yolu yenidən qurulur.

Mayın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolda aparılan yenidənqurma işləri ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, uzunluğu 2 kilometr olan avtomobil yolunun asfalt örtüyü götürülmüş, yol yatağı genişləndirilərək 10 metrə çatdırılmışdır. Tikinti işləri aparılarkən yolun üzərindəki körpü də yenidən qurulacaq, müvafiq təhlükəsizlik tədbirləri görüləcəkdir. Həmçinin yolun kənarları abadlaşdırılacaq, piyada yolu salınacaq, müasir işıqlandırma sistemləri quraşdırılacaqdır.

Ali Məclisin Sədri tikinti işlərinin keyfiyyətlə aparılması barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Ulu öndər Heydər Əliyev və Azərbaycanın müstəqilliyi



*Dünən AMEA Naxçıvan Bölməsində Heydər Əliyev lektoriyasının 70-ci məşğələsi keçirilib.*

Məşğələni giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli açıb.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev “Heydər Əliyev və Azərbaycanın müstəqilliyi” mövzusunda danışaraq bildirib ki, Azərbaycanın son qırx ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi və mədəni həyatının bütün sahələrindəki dirçəliş məhz onun müdrik və uzaqgörən fəaliyyətinin nəticəsidir.

Qeyd olunub ki, Azərbaycanın müstəqilliyinin bərpa olunmasında ulu öndər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrü xüsusi əhəmiyyətə malikdir. Dahi şəxsiyyət Naxçıvanda yaşayıb çalışdığı, muxtar respublikanın rəhbəri olduğu illərdə Azərbaycan üçün çox əhəmiyyətli olan böyük tarixi qərarlar qəbul edib. 1990-cı il noyabr ayının 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında mühüm qərarlar qəbul edilib. Belə ki, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikası adlandırılıb, Azərbaycan Xalq Cümhuriyyətinin milli istiqlal rəmzi olan üçrəngli dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilib. Bu qərarlar müstəqil Azərbaycanın milli dövlət quruculuğunda böyük əhəmiyyət daşıyır.

Ulu öndər Heydər Əliyevin müstəqil dövlətimizin yaranmasında və inkişafındakı tarixi xidmətlərini vurğulayan akademik onu da qeyd edib ki, iki əsrin qovuşuğunda Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışının nəticəsidir. Məhz həmin tarixi qayıdışdan sonra ümummilli liderimizin uzaqgörənlik və müdrikliklə həyata keçirdiyi siyasət Azərbaycanın müstəqilliyini əbədi, dönməz və sarsılmaz edib. 1993-cü ildən sonrakı dövr müasir Azərbaycanın tarixinə dövlət müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə dövrü kimi yazılıb, ictimai-siyasi sabitliyin və qanunçuluğun bərqərar edilməsi bu dövrün ən mühüm nailiyyəti olub.

Sonra məruzə ətrafında çıxışlar olub.



*Dünən Naxçıvan Müəllimlər İnstitutunda da “Heydər Əliyev və Azərbaycanın müstəqilliyi” mövzusunda Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib.*

Məşğələdə institutun rektoru, professor Oruc Həsənli məruzə edərək bildirib ki, ulu öndər Heydər Əliyevin bütün həyat və fəaliyyəti Azərbaycanla bağlı olub. Ölkəmizə rəhbərliyinin hər iki dövründə dahi şəxsiyyətin Vətənimiz qarşısındakı misilsiz xidmətləri Azərbaycanın müstəqilliyini təmin etməklə bərabər, həm də onun müasir inkişafını şərtləndirib.

Qeyd olunub ki, Sovetlər Birliyi iflasa uğradıqdan sonra Azərbaycana siyasi səriştəsi olmayan adamların rəhbərlik etməsi ölkədə daxili sabitliyin pozulmasına gətirib çıxarıb. Bu dövrdə bütün Azərbaycanda, həmçinin Naxçıvanda xalqın azadlıq uğrunda apardığı mübarizəni qələbə ilə başa çatdırmaq üçün milli rəhbər lazım idi. Belə bir rəhbər isə xalqımızın müdrik oğlu, görkəmli dövlət xadimi Heydər Əliyev idi. Ulu öndər Heydər Əliyev 1990-cı il iyulun 20-də Moskvadan Bakıya, iyulun 22-də isə doğulduğu Naxçıvan torpağına gəlib. Bu dövrdən etibarən ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrü başlayıb.

Vurğulanıb ki, 1990-cı il noyabr ayının 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyası ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilib. Həmin sessiyada müstəqil dövlət quruculuğu istiqamətində tarixi qərarlar qəbul olunub. Bundan əlavə, ümummilli liderin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə qonşu İran və Türkiyə respublikaları ilə müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin qurulması muxtar respublikanın mədəni, iqtisadi və siyasi həyatında mühüm rol oynayıb.

Rektor bildirib ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən ölkəyə rəhbərlik etməyə başlayan ulu öndər Heydər Əliyev qısa müddətdə daxili sabitliyin bərpa edilməsinə nail olub, torpaqlarımızın işğalının qarşısını alıb. Ən əsası isə dövlət müstəqilliyimiz qorunub saxlanılıb. Sonrakı mərhələlərdə isə Azərbaycanın iqtisadi, siyasi, mədəni inkişafına nail olunub. Ötən müddətdə ölkəmiz bütün sahələrdə inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutub. Buna görə də müstəqil Azərbaycan dövləti var olduqca xalqımızın xoşbəxt gələcəyini təmin edən ümummilli lider Heydər Əliyevin adı da qəlbimizdə yaşayacaqdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

*Azərbaycanın özü qədər əbədi*

# Ümummilli liderimiz Heydər Əliyev ölkəmizdə həyata keçirilən hüquqi islahatların banisidir

Ədalətin, qanunçuluğun üstün olduğu dövlətdə yaşamaq hər bir xalqın arzusu olmuşdur. Azərbaycan xalqının müstəqillik mübarizəsi də bu amala xidmət edirdi. Əbədiyaşar xilaskar, ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın çağırışı ilə respublika rəhbərliyinə qayıdışı zamanı Azərbaycan iflas həddində idi, hüquqi dövlət quruculuğundan, ədalət və qanunçuluqdan isə söhbət gedə bilməzdi. Xalqımızı və dövlətimizi böyük təhlükələrdən xilas etmək, müstəqil Azərbaycan dövlətini qurmaq missiyasına ***“ömrümün qalan hissəsini də xalqıma bağışlayıram”*** söyləməklə başlayan ümummilli lider Heydər Əliyev cəsarəti və sarsılmaz iradəsi ilə ölkəmizin demokratik və hüquqi dövlət kimi təşəkkül tapmasına müvəffəq oldu. Məhz Onun hakimiyyətə qayıdışından sonra Azərbaycanın müstəqillik tarixində real dövlət quruculuğu səhifəsi açıldı. Təsadüfi deyil ki, 1993-cü ildə ulu öndər qarşıya qoyduğu vəzifələri belə bəyan etmişdi: ***“Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir”.***

Müstəqilliyin qorunmasının onun əldə edilməsindən qat-qat çətin olduğunu deyən dahi rəhbər Heydər Əliyev bu ağır vəzifənin öhdəsindən layiqincə gəldi. Ölkədə cərəyan edən hadisələri dərindən təhlil edən ümummilli lider yaxşı bilirdi ki, Azərbaycanın müstəqilliyini təmin etmək, onu möhkəmləndirmək, ölkədə demokratik, hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün, ilk növbədə, ictimai-siyasi sabitlik, qanunçuluq, hüquq qaydası təmin edilməlidir. ***“Dövlət dövlətçiliyi qorumalıdır”*** fikrini dönə-dönə vurğulayan ulu öndər Heydər Əliyev çox qəti və prinsipial mövqedən çıxış edərək ciddi intizam, tələbkarlıq və dövlət mənafeyi kimi amilləri ön plana çəkdi.

Demokratik dəyərlərin prioritetliyini qəbul edən, azadlığın və ədalətin bərqərar olunduğu hüquqi dövlət qurmaq istəyən hər bir ölkə üçün ən əhəmiyyətli məsələlərdən biri Konstitusiyanın qəbul olunmasıdır. Ulu öndər Heydər Əliyev Azərbaycanın ilk milli Konstitusiyasının müstəqilliyə xidmət etməsini, insan hüquq və azadlıqlarının qorunmasına təminat verməsini arzu edirdi. Bu məqsədlə dahi rəhbər Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan Dövlət Komissiyası təşkil edildi. Ulu öndərin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanaraq ümumxalq müzakirəsinə çıxarılan Konstitusiya layihəsi 1995-ci il noyabrın 12-də keçirilən ümumxalq səsverməsində – referendumda qəbul edildi. Əsas Qanunumuz hakimiyyət bölgüsü prinsipinin, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının əsasını qoydu.

Konstitusiyanın qəbulundan sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq islahatlarının aparılması, qanunvericilik bazasının təkmilləşdirilməsi prosesinə başlanıldı. Demokratik təsisatların bərqərar edilməsi, hüquqi islahatların həyata keçirilməsi, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyətinin təmin olunması məqsədilə ulu öndər Heydər Əliyevin 1996-cı il 21 fevral tarixli Sərəncamı ilə Hüquq-İslahat Komissiyası yaradıldı. Bu komissiya ilkin mərhələdə reallaşdırılacaq hüquqi islahatların prioritetlərini müəyyən etdi və Sovetlər İttifaqından miras qalmış hüquq sisteminin köklü şəkildə dəyişdi. Komissiya tərəfindən “Konstitusiya Məhkəməsi haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Prokurorluq haqqında”, “Vəkillər və vəkillik fəaliyyəti haqqında”, “Notariat haqqında” və hüquq sisteminin əsasını təşkil edən digər qanunlar, o cümlədən Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, Əmək, Ailə, İnzibati Xətalar və digər məcəllələrin layihələri hazırlandı və nüfuzlu beynəlxalq qurumlarda ciddi ekspertizadan sonra qəbul edildi.

Ümummilli lider Heydər Əliyevin 1 dekabr 1998-ci il tarixli “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər haqqında imzaladığı Fərman əsasında ölkəmizdə məhkəmə quruluşunun və məhkəmə icraatının mahiyyətcə yeni modelinin bərqərar edilməsi prosesinə başlanıldı. Dahi rəhbərin uzaqgörən siyasəti ilə aparılan məhkəmə-hüquq islahatlarının başlıca məqsədi məhkəmə hakimiyyətinin dövlət idarəçilik mexanizmində nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin obyektiv, qərəzsiz və ədalətlə həyata keçirilməsi, cinayət və mülki mühakimədə demokratik prinsiplərin qorunması, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi idi.

Qanunun aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi məqsədilə ölkəmizdə 1998-ci il iyul ayında Konstitusiya Məhkəməsi yaradıldı, 2000-ci ilin sentyabr ayında üçpilləli yeni məhkəmə sistemi fəaliyyətə başladı, 2004-cü ildə məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası təsis edildi.

Ulu öndərin rəhbərliyi ilə aparılan hüquqi islahatlara adekvat olaraq məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının da cəmiyyətdə roluna yenidən baxıldı, 1999-cu ildə “Prokurorluq haqqında” Qanun qəbul edildi.

Eyni zamanda müstəqil təsisat olan Vəkillər Kollegiyasının fəaliyyətinin yeni, demokratik əsaslarla təşkil edilməsi, əhaliyə hüquqi yardımın yaxşılaşdırılması məqsədilə 1999-cu ildə “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Qanun qəbul edildi, hüquqi yardımın göstərilməsində bu orqanın rolunun daha da artırılması üçün qanunvericilik təkmilləşdirilərək müasir tələblərə uyğunlaşdırıldı.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hüquqi dövlət quruculuğu prosesi çərçivəsində ədliyyə orqanlarında da əsaslı islahatlar aparıldı, ədliyyə sisteminin hərtərəfli inkişafı istiqamətində tarixi əhəmiyyətli qərarlar qəbul olundu, bu orqanların fəaliyyətində köklü mütərəqqi dəyişikliklərə başlanıldı.

İnsan hüquqlarının qorunmasına müstəsna əhəmiyyət verən ulu öndər Heydər Əliyevin 1998-ci il fevral ayının 22-də imzaladığı “İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərmanla insan hüquqlarının təminatı istiqamətində həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası dəqiq müəyyən edildi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə ardıcıl surətdə həyata keçirilən köklü islahatlar, sosial, hüquqi, mədəni və digər islahatların təməlində insana qayğı, insan ləyaqətinə, şəxsiyyətinə hörmət prinsipi dayanırdı. Təsadüfi deyil ki, dövlətimizin insan hüquqları sahəsində atdığı ən mühüm addımlarından biri də ölkədə 10 fevral 1998-ci il tarixdə ölüm cəzasının ləğv edilməsi olmuşdu.

İnsan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı şəkildə təmin edilməsi məqsədilə 28 dekabr 2001-ci ildə Milli Məclis tərəfindən “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Konstitusiya Qanunu qəbul edildi və ölkəmizdə ilk dəfə olaraq Ombudsman təsisatı yaradıldı.

Böyük öndər Heydər Əliyev hüquqi islahatların ardıcıl və məqsədli şəkildə həyata keçirilməsini təmin etməklə vətəndaş-dövlət münasibətlərinin qaydaya salınmasına, qanunçuluğun və hüquq qaydalarının bilavasitə mühafizəsinə və təmin edilməsinə, cəmiyyətdə nizam-intizamın və sabitliyin əldə olunmasına xüsusi diqqət yetirirdi. Məhz bu səbəbdən intensiv surətdə həyata keçirilən tədbirlərdən biri də hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarında dövlətə, xalqa sədaqətli şəxsi heyətin formalaşdırılması, peşə borcunu, qanunun aliliyini hər şeydən üstün tutan əməkdaşların xidmətə cəlb edilməsi idi. Bu baxımdan nüfuzlu beynəlxalq təşkilatların, Avropa ekspertlərinin rəyləri nəzərə alınmaqla “Polis haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında” qanunlar, “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında” və “Daxili işlər orqanlarında xidmət keçmə haqqında” əsasnamələr qəbul edildi. Məhz görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi altında hüquq-mühafizə orqanları tərəfindən respublikada tüğyan edən mütəşəkkil cinayətkarlığa, sabitlik üçün təhlükə doğuran zərərli meyillərə qarşı uğurlu mübarizəyə, qanunsuz silahlı birləşmələrin zərərsizləşdirilməsinə başlanıldı. Vətəndaşlarımızın dinc, rahat yaşamaları üçün lazım olan şərait yaradıldı, onların dövlətə, hüquq-mühafizə orqanlarına inamı daha da artdı, ictimai-siyasi, həmçinin kriminogen vəziyyət nəzarətə götürüldü.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə respublikada qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi, eləcə də güclü dövlətçilik intizamı və dövlət orqanları arasında normal, işgüzar münasibətlərin yaradılması ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatının hər bir sahəsi üzrə ciddi irəliləyişlərə, o cümlədən cinayətkarlıqla mübarizənin uğurla aparılmasına təkan verdi. Məhkəmə və hüquq-mühafizə orqanlarında aparılan islahatlar, qəbul edilmiş yeni qanunvericilik aktları daha keyfiyyətli və səmərəli fəaliyyətin, qanunların aliliyinin təmin edilməsi uğrunda barışmaz və prinsipial mübarizə aparılmasının stimullaşdırıcısı və qarantıdır.

Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik respublikamızın müstəqillik tarixinin ən mühüm nailiyyətlərindən biridir. Danılmaz faktdır ki, məhz ümummilli lider Heydər Əliyevin qətiyyəti və yüksək idarəçilik bacarığı sayəsində ölkəmizdə bərqərar edilmiş sabitlik hüquqi islahatların aparılmasına, iqtisadiyyatın bərpasına və inkişaf etdirilməsinə əlverişli zəmin yaratmışdır.

Demokratik, hüquqi dövlət quruculuğu və onun əsas tərkib hissəsi olan məhkəmə-hüquq islahatları Heydər Əliyev siyasi kursunun və dövlətçilik ənənələrinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu uğurlu siyasətin nəticəsidir ki, hazırda respublikamızda daxili sabitlik hökm sürür, qanunçuluğa və hüquq qaydalarına ciddi şəkildə riayət olunur. Qeyd etmək yerinə düşər ki, ölkə başçısının “İctimai asayişin qorunmasında vətəndaşların iştirakı Qaydası” haqqında 2016-cı il 2 mart tarixli Fərmanı cəmiyyətdə polis-vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsinə, vətəndaşların ictimai asayişin qorunmasında iştirakına, habelə polis orqanları tərəfindən vətəndaşların könüllülük əsasında ictimai asayişin təmin olunması işinə cəlb edilməsinə xidmət edir.

Ölkədə həyata keçirilən məhkəmə-hüquq islahatları, vətəndaşların hüquq və azadlıqlarının ədalət mühakiməsi yolu ilə qorunması, demokratik təsisatların bərqərar olunması Azərbaycanın bütün regionlarını əhatə etməkdədir. Bu sahədə Naxçıvan Muxtar Respublikasında da böyük uğurlar əldə edilmişdir. Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi altında muxtar respublikada məhkəmə və hüquq-mühafizə orqanları tamamilə yenidən formalaşdırılmış, onların fəaliyyətinin müasir standartlara uyğun formada təşkili, maddi-texniki təminatının daha da möhkəmləndirilməsi istiqamətində böyük işlər görülmüşdür.

Müqayisə üçün bir faktı qeyd edək ki, 1995-ci ilədək muxtar respublikada məhkəmə orqanlarının inzibati binaları nəinki istifadə üçün yararsız halda idi, bu binalar həmin dövrlərdə hətta məhkəmələrin balansında belə, deyildi. Hazırda isə muxtar respublikamızda fəaliyyət göstərən bütün məhkəmə, habelə hüquq-mühafizə orqanları üçün qabaqcıl meyarları özündə ehtiva edən, həm memarlıq, həm də daxili tərtibat və dizayn baxımından müasir tələblərə cavab verən inzibati binalar inşa edilmişdir.

Ötən dövr ərzində ədalət mühakiməsinin səmərəliliyinin artırılması, insan hüquq və azadlıqlarının müdafiəsi mexanizmlərinin daha da təkmilləşdirilməsi məqsədilə muxtar respublikada İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatı və Vəkillər Kollegiyası fəaliyyətə başlamış, müasir tələblərə cavab verən cəzaçəkmə müəssisələri və istintaq təcridxanaları yaradılmışdır.

Qeyd edək ki, ictimai-siyasi sabitliyin təmin olunması da muxtar respublikamızda hər zaman diqqət mərkəzində saxlanılmışdır. 2016-cı ilin Naxçıvan Muxtar Respublikasında “Nizam-intizamın daha da möhkəmləndirilməsi ili” elan olunması bu deyilənləri bir daha təsdiq edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən “İctimai asayişin qorunmasında vətəndaşların iştirakının təmin edilməsi barədə” 2016-cı il 15 aprel tarixli Fərmanın imzalanması isə qanunçuluğun və hüquq qaydasının qorunmasında vətəndaşların geniş iştirakının təmin edilməsinə, polis orqanlarına ictimai dəstəyin təşviqinə, polis-vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsinə xidmət edir.

*Muxtar respublikanın məhkəmələri və hüquq-mühafizə orqanları insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, ictimai-siyasi sabitliyin qorunması istiqamətində bundan sonra da səmərəli fəaliyyət göstərəcək, vətəndaşların layiqli həyat səviyyəsi və sosial rifahının daha da gücləndirilməsi naminə üzərlərinə düşən vəzifələri ulu öndər Heydər Əliyev ideallarına layiq şəkildə davam etdirəcəklər.*

**Vüqar QULİYEV**
***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi,***
***Naxçıvan Muxtar Respublikasının Əməkdar hüquqşünası***

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş tədbir keçirilib

*Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Oğlanqala kəndində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə tədbir keçirib. Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev, təşkilatın idarə heyətinin üzvü Vaqif Cabbarov, şura üzvü Ədalət Əhmədov və başqaları çıxış ediblər.*

Çıxışlarda qeyd olunub ki, Azərbaycanın dövlətçilik tarixində ən şanlı və parlaq səhifələr ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərə təsadüf edir. 1969-1982-ci illərdə ulu öndərin apardığı uğurlu islahatlar nəticəsində Azərbaycan ittifaq respublikaları arasında ən yüksək pilləyə yüksəlib. Əslində, müstəqil Azərbaycanın indiki iqtisadi inkişafı, sosial tərəqqisi və ictimai-siyasi sabitliyin davamlılığı həmin illərdə ümummilli lider tərəfindən müəyyən edilmiş kompleks islahatlar strategiyasının, düşünülmüş uzunmüddətli siyasi kursun davamıdır.

Vurğulanıb ki, 1993-cü ildə ölkədə xaos, hərc-mərclik, özbaşınalıq hökm sürürdü, qanunsuz silahlı dəstələr əhalini qorxu altında saxlayırdı. Xalqa sədaqətlə rəhbərlik edən əsl liderin olmaması, dövlətçilik institutlarının səbatsızlığı ucbatından ölkə, sözün əsl mənasında, kortəbii axara düşmüşdü. Ulu öndərin dövlətçilik qətiyyəti və iradəsi nəticəsində qısa vaxtda bu vəziyyətə son qoyuldu, vətəndaş qarşıdurması aradan qaldırıldı, qanunçuluq bərpa olunaraq möhkəmləndirildi, ictimai-siyasi sabitlik yaradıldı.

Qarşıya qoyulan əsas məqsədlərdən biri bundan sonra xarici investorları ölkəyə cəlb edib iqtisadiyyatı dirçəltmək, yeni müəssisələr yaratmaq idi. Böyük öndər ölkənin iqtisadi inkişafını dövlətin əsas vəzifəsi elan etdi və 1994-cü ilin sentyabr ayında Azərbaycan üçün, region üçün iqtisadi və geosiyasi əhəmiyyət kəsb edən “Əsrin müqaviləsi” imzalandı. Bununla Azərbaycanın həm iqtisadi, həm siyasi, həm də mədəni həyatında yeni dövr başlandı.

Diqqətə çatdırılıb ki, görkəmli dövlət xadimi Heydər Əliyevi xalqın ümummilli liderinə çevirən keyfiyyətlərdən başlıcası onun xalqına qırılmaz tellərlə bağlı olması idi. Bütün ömrünü xalqının rifahının yaxşılaşdırılmasına, Azərbaycanın beynəlxalq aləmdə tanınmasına, nüfuzunun artmasına sərf etdi. Güclü, yenilməz və qüdrətli bir dövlət qurdu.

Bu gün ulu öndərimizin ideyaları ardıcıl olaraq həyata keçirilir, müəyyənləşdirdiyi və ölkəmizin gələcəyi üçün planlaşdırılmış strategiya uğurla davam etdirilir. Bunu Azərbaycanın ayrılmaz tərkib hissəsi Naxçıvan Muxtar Respublikasının timsalında daha yaxından görmək olar. Son illərdə bu qədim diyarda təmin olunmuş ictimai-siyasi sabitlik, muxtar respublikanın həyat ritminə çevrilmiş abadlıq-quruculuq tədbirləri ulu öndər Heydər Əliyev şəxsiyyətinə böyük sədaqət və ehtiramdan qaynaqlanır.

Tədbirdə Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul olunmuş gənclərə üzvlük vəsiqələri təqdim edilib.

**Elman MƏMMƏDOV**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına əsasən təşkil olunan "Muzey günləri"nin keçirilməsi tarixi irsimizin öyrənilməsi baxımından əhəmiyyətli və əlamətdar hadisədir. Sərəncamdan ötən müddət ərzində muxtar respublikada fəaliyyət göstərən müxtəlif qurumların, idarə, müəssisə və təşkilatların əməkdaşları mütəmadi olaraq muzeylərimizi ziyarət edir, bu mədəniyyət müəssisələrindəki eksponatlarla yaxından tanış olurlar. "Muzey günləri"nin keçirilməsi muxtar respublika ictimaiyyəti tərəfindən minnətdarlıqla qarşılanır.*

# Tələbələr muzeyləri ziyarət edirlər

Bu tədbirlərin davamı olaraq may ayının 5-dən etibarən Naxçıvan Muxtar Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrinin iştirakı ilə "Muzey günləri"nin keçirilməsinə başlanıldı. İlk olaraq Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin tələbələri Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini ziyarət etdilər. Burada muzeyin direktoru Ramil Orucəliyev tərəfindən tələbələrə eksponatlar haqda ətraflı məlumat verildi. Qeyd edildi ki, tarixdə bəzi şəxsiyyətlərin həyat və fəaliyyəti bütöv bir xalqın, dövlətin inkişaf yolunu müəyyənləşdirir. Belə nadir şəxsiyyətlərdən biri də ötən əsrin və yeni minilliyin görkəmli siyasi və dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ulu öndərimizin adı Azərbaycan xalqının rəmzinə, keçdiyi ömür yolu doğma torpağa məhəbbət və sədaqət meyarına çevrilib.

Ramil Orucəliyev bildirdi ki, muzeyin fondunda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən minlərlə eksponat toplanıb. Ulu öndər tərəfindən qəbul edilmiş qərar və sərəncamlar, imzalanmış protokol və müqavilələr, ümummilli liderə göndərilmiş məktub və teleqramlar mənalı ömür yolunun müxtəlif anlarını özündə əks etdirməklə görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin dövlətçilik və ictimai-siyasi fəaliyyəti barədə dolğun təsəvvür yaradır.



Sonra tələbələr ulu öndər Heydər Əliyevin doğulub boya-başa çatdığı böyük və mehriban ailənin həyatından müxtəlif məqamları əks etdirən fotoşəkillərə, dövlət təhlükəsizliyi orqanlarında fəaliyyətinə, 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi, Moskvada Sovet İttifaqının ali rəhbərliyində çalışdığı dövrlərə, 1990-1993-cü illərdəki fəaliyyətinə, həyata keçirdiyi qurtuluş missiyasına, Ermənistanın ölkəmizə təcavüzünün nəticələrini aradan qaldırmaq sahəsində gördüyü işlərə, xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına və inkişafına göstərdiyi qayğıya, xarici siyasət sahəsində fəaliyyətinə həsr olunmuş stendlərə böyük maraqla baxdılar. Ekspozisiya ilə tanışlıq zamanı muzeyin direktoru bildirdi ki, ulu öndərimizin Azərbaycan xalqı qarşısında xidmətlərindən biri də İlham Əliyev kimi bir siyasətçi yetişdirərək müstəqil dövlətimizin ardıcıl inkişafı üçün zəmin yaratmasıdır. Bunun nəticəsidir ki, 2003-cü ildən başlayaraq ölkə başçısının həyata keçirdiyi uzaqgörən siyasət Azərbaycanı dünyada ən böyük sürətlə inkişaf edən bir dövlətə çevirib. Bu gün Azərbaycan geniş bir bölgədə söz sahibi olan, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunda qazandığı uğurları ilə dünyanın diqqətini özünə cəlb edən güclü bir dövlətdir. Vətənimizin işıqlı sabahı naminə gördüyü dəyərli işlər sayəsində ulu öndərimizin layiqli davamçısı Azərbaycan Prezidenti cənab İlham Əliyev xalqımızın dərin məhəbbətini və hörmətini qazanıb.

Muzeyi ziyarətdən sonra tələbələrlə söhbət edib təəssüratlarını öyrəndik. Sosial idarəetmə və hüquq fakültəsinin birinci kurs tələbəsi, əslən Ağcabədi rayonundan olan Mütalib Sadıqov dedi ki, ilk dəfədir, Heydər Əliyev Muzeyini ziyarət edir. Hələ məktəb illərində ümummilli liderimizin həyat və fəaliyyəti haqda məlumata malik olub. Ancaq buradakı eksponatlarla tanışlıqdan sonra görür ki, indiyə qədər ulu öndər haqda çox az öyrənib. Buradakı eksponatların hər biri ona ümummilli liderimizin Azərbaycan, eləcə də Naxçıvan Muxtar Respublikası üçün göstərdiyi misilsiz xidmətlər haqda dolğun məlumat almağa imkan verib.

Fakültənin I kurs tələbələrindən Sevinc Hüseynli, Fatimə Bayramova, Ləman Orucova və Şəms Mirzəyeva bildirdilər ki, ulu öndərimizin məktəb və tələbəlik illərini, yaxşı təhsil almasını, biliklərə dərindən yiyələnməsini əks etdirən eksponatlar daha çox maraq göstəriblər. Bundan sonra da ulu öndərimizin əzmkarlığı, öyrənmə həvəsi, xalqı üçün yorulmadan çalışması, ən çətin məqamlarda böyük vətənpərvərlik, iradə nümayiş etdirməsi onlar üçün əsl nümunə olacaq. Bu muzeydə ümummilli lider Heydər Əliyevin fəaliyyətinin, belə demək mümkünsə, şahidləri olan eksponatlarla tanış olduqlarına görə təşkilatçılara minnətdardırlar.

Adıçəkilən fakültənin dekanı, fəlsəfə üzrə elmlər doktoru Qərib Allahverdiyev, universitetin Fəlsəfə və sosial iş kafedrasının müdiri, dosent Novruzəli Rəhimov, Coğrafiya kafedrasının müdiri, coğrafiya üzrə fəlsəfə doktoru, dosent Nazim Babaəyli ilə söhbət zamanı tələbələrin muzeylərə ziyarətinin onların dünyagörüşünün artırılmasında, mədəni irsimizin öyrənilməsində mühüm addım olduğunu qeyd etdilər.

Həmin gün "Naxçıvan" Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Musiqi Kollecinin tələbələri Naxçıvan Dövlət Xalça Muzeyində oldular. Burada qeyd edildi ki, tarixi yaddaşın, etnomədəniyyət salnaməsinin, milli təfəkkür və mənəvi dəyər fəlsəfəsinin ehtiva olunduğu əvəzsiz nümunələrin mühafizəsi vacib şərtdir. 1998-ci ilin aprelindən fəaliyyət göstərən Naxçıvan Dövlət Xalça Muzeyi də bu məqsədlə yaradılıb.

Hazırda Naxçıvan Dövlət Xalça Muzeyində nümayiş etdirilən nümunələr üçün müasir qoruma standartlarına uyğun şərait yaradılıb. Xovsuz və xovlu xalça növləri, habelə məfrəş, xurcun, torba kimi məmulatların ən gözəl nümunələri muzeyi bəzəyir. İndi bu mədəniyyət ocağında Azərbaycan xalçaçılıq məktəbinin Naxçıvan qrupuna aid 109 xalça nümayiş etdirilir. Habelə "Azər-İlmə" tərəfindən dünyanın müxtəlif ölkələrindən, şəxsi kolleksiyalardan əldə olunan 29 xovlu və xovsuz xalça, xalça məmulatları – üç məfrəş, xurcun, duz torbası muzeyə hədiyyə olunub. Naxçıvan Dövlət Xalça Muzeyinin daimi ekspozisiyasında 264 xovlu və xovsuz xalçalar, müxtəlif əl işləri, tikmələr, toxuculuq alətləri, 60 ədəd mis və saxsı qab nümayiş etdirilir. Bu gün Naxçıvan Dövlət Xalça Muzeyi mədəni mərkəzə çevrilib.

Muzeylə tanış olan Naxçıvan Müəllimlər İnstitutunun I kurs tələbələrindən Şəhla İbrahimli, Aytən Abbasova, Ləman Eyvazova, Nuray Seyidova və başqaları dedilər ki, bir çoxlarının evində burada nümayiş etdirilən xalçalara bənzər xalçalar var. Ancaq onlar bu muzeyə gəlib bələdçi tərəfindən ətraflı məlumat alana qədər bu xalçaların necə böyük dəyərə malik olmasının fərqinə varmayıblar. Xalça Muzeyini ziyarət onlara çox şey öyrədib. Bundan sonra çalışacaqlar ki, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən digər muzeyləri ziyarət etsinlər, tariximiz, mədəniyyətimiz, incəsənət tariximiz haqda ətraflı məlumata malik olsunlar.

Beləcə, muxtar respublikanın ali təhsil ocaqlarının tələbələrinin iştirakı ilə keçirilən ilk "Muzey günü" yüksək təəssüratlarla başa çatdı.

**Səbuhi HÜSEYNOV**

# Muxtar respublikada *"Yaradıcı əllər"* festivalı keçirilir





***Mayın 5-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Yaradıcı əllər" festivalının açılışı olub.***

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat, Mədəniyyət və Turizm nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən festivala muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin tələbə və müəllimləri, ümumtəhsil məktəblərinin şagirdləri, sahibkarlar, müxtəlif idarə və təşkilatların, ictimaiyyətin nümayəndələri böyük maraq göstəriblər. Belə festivalın keçirilməsində məqsəd milli dəyərlərimizi yaşatmaq və təbliğ etmək, istedadlı insanları üzə çıxarmaqdır.

Festivalda istedadlı şəxslər, sənətkarlar, muxtar respublikada fəaliyyət göstərən iaşə obyektləri tərəfindən hazırlanıb nümayiş etdirilən əl işlərinin – dekorativ-tətbiqi sənət, tikmə, toxuma nümunələrinin, rəsm əsərlərinin, xalçaların, milli yeməklərin, şirniyyatların, şərbətlərin sərgi-satışı təşkil edilib. Rayon (şəhər) Mədəniyyət və Turizm şöbələrinin folklor kollektivləri, Naxçıvan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblı və muğam studiyası, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs ansamblı və "Gənclik" Xalq Teatrının çıxışları böyük maraqla qarşılanıb.

Qeyd edək ki, festival çərçivəsində milli yeməklər, şirniyyatlar və əl işləri (o cümlədən toxuma, tikmə, dekorativ iş, rəsm əsərləri) nominasiyası üzrə müsabiqə keçiriləcək. Müsabiqə qaliblərinə (8 nəfər I yer, 8 nəfər II yer, 8 nəfər III yer) təşkilatçılar tərəfindən diplom və hədiyyələr veriləcəkdir.

Festival həmin gün saat $12^{00}$-dan $20^{00}$-dək davam edib. Bu gün isə saat $10^{00}$-dan $20^{00}$-dək keçiriləcək.

**Xəbərlər şöbəsi**

*Mayın 5-də Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında görkəmli yazıçı-publisist və pedaqoq Eynəli bəy Sultanovun anadan olmasının 150 illiyinə həsr olunmuş konfrans keçirilib.*

# Eynəli bəy Sultanovun anadan olmasının 150 illiyinə həsr olunmuş konfrans



Konfransı Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova açıb.

Konfransda böyük kitabxanaçı Nərmin Allahverdiyeva "Eynəli bəy Sultanovun həyatı və yaradıcılığı", AMEA Naxçıvan Bölməsinin elmi işçisi Elxan Məmmədov "Eynəli bəy Sultanov və Azərbaycan folkloru", böyük kitabxanaçı Vəsilə Cəfərova "Eynəli bəy Sultanovun bədii yaradıcılığında şifahi xalq şeiri", kitabxanaçı Əzizə Süleymanzadə "Eynəli bəy Sultanov və Naxçıvan teatrı" adlı mövzularda çıxış ediblər. Çıxışlarda görkəmli yazıçı-publisist və pedaqoq Eynəli bəy Sultanovun çoxşaxəli fəaliyyətindən söhbət açılıb, onun ədəbiyyatımıza verdiyi töhfələrdən danışılıb.

Qeyd olunub ki, mədəniyyət tariximizə adını həm də teatr xadimi və tənqidçisi kimi həkk etdirən Eynəli bəy Sultanov qabaqcıl ziyalıları öz ətrafında toplayaraq Naxçıvan teatrının yaranmasında yaxından iştirak edib, teatr sənətinin təşəkkülündə mühüm xidmətlər göstərib. Bildirilib ki, əsl ziyalı, humanist və vətənpərvər olan bu şəxs öz xalqının övladlarının dünyagörüşlü, savadlı olmasını istəyib, bu yolda əlindən gələni əsirgəməyib.

Sonda konfrans iştirakçıları Eynəli bəy Sultanovun həyat və fəaliyyətinin əks olunduğu slayda və sərgiyə baxıblar.

**Fatma BABAYEVA**

*Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə Kəngərli rayonunda gənclər arasında siyasi biliklər üzrə olimpiada keçirilib.*

# Kəngərli rayonunda gənclər arasında olimpiada

Əvvəlcə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva çıxış edərək ulu öndərimizin ölkəmizin çiçəklənməsi yolunda misilsiz xidmətləri haqda danışıb, ümummilli liderimizin siyasi fəaliyyəti barədə hər bir gəncin ətraflı məlumata malik olmasının əhəmiyyətindən bəhs edib, olimpiadada iştirak edənlərə uğurlar arzulayıb. Qeyd edilib ki, belə tədbirlərin təşkilində məqsəd gənclərin siyasi fəallığını artırmaq, siyasi biliklərə malik gənc nəslin yetişdirilməsinə töhfə verməkdir.

Adıçəkilən təşkilatın Heydər Əliyev adına Gənclər Birliyinin sədri Süleyman Süleymanov gənclərin belə tədbirlərdə fəal iştirak etməsini müsbət hal kimi dəyərləndirib.

Sonra olimpiadaya start verilib. 50 gəncin iştirak etdiyi olimpiadada siyasi biliklərini sınayanlara 50 sual təqdim olunub.

Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının və rayon İcra Hakimiyyətinin birgə təşkil etdikləri olimpiadanın nəticələrinə əsasən, gənc fəallardan Ağa Seyidov I, Ülkər Gülməmmədova, Yunis Ələkbərov, Vüsalə Musayeva, Gülnar Nəcəfova II, İlqar Əliyev isə III yerə layiq görülüblər.

Qaliblərə diplomlar və qiymətli hədiyyələr təqdim edilib.

**Xəbərlər şöbəsi**

## İtmişdir

Babək rayonunun Şıxmahmud kənd sakini Alıyeva Rəsmiyyə Alı qızının adına olan JN -261A inventar nömrəli 10311018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Vüqar Qasımov küçəsi, ev 9-da yaşayan Hüseynova Vüsalə Fərman qızının adına olan evin texniki pasportu itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 356